

openexo

# Eksponent Transformasiya üzrə Təlimat

21-ci əsrin qabaqcıl təşkilatlarını qurmaq üçün eksponent atributlardan istifadə üzrə təlimat

Tərcümə etdi: Emil Rahib Vəliyev

# Biz qeyri-adi bir zamanda yaşayırıq.

Yaşamaq üçün ən yaxşı vaxt olduğunu iddia etmək olar. Texnologiya insanlara bir neçə il əvvəl sadəcə qeyri-mümkün olanları etməyə imkan verir. Özəl şirkətlər kosmosa gedir, adi insanlar bütün dünyada video vasitəsilə əlaqə qurur və kiçik qruplar böyük mövcud təşkilatları poza bilir. Bütün bunların səbəbi eksponent dəyişiklikdir.




1956
**5MB**




2000
**8MB**

| 2005 | 2014 | 2016 | 2018 | 2020 |
|---|---|---|---|---|
| **128MB** | **128GB** | **256GB** | **512GB** | **1TB** |




Nümunə kimi yaddaş diskini götürsək, yuxarıdakı şəkillər əsasında yaddaşın ölçüsünün zamanla necə dəyişdiyini görmək olar. Barmağınızın ucu qədər ölçüsü olan 1TB-lik mikro SD kart 1956-cı ildə istifadədə olmuş bərk diskin yaddaş tutumundan 200 000 dəfə çoxdur. Qiymət baxımından müqayisə etsək, İBM şirkətinin istehsalı olan 5MB-lik İBM 305 RAMAC markalı elektron hesablayıcı maşınının illik xərci 35 000 ABŞ dolları olmuş və 1 MB-nin qiyməti 7000 ABŞ dolları təşkil etmişdir. Bu gün isə (2021-ci ildə) 1 MB-nin qiyməti 0.0000194 ABŞ dollardır.

**Bu, 360 milyon dəfədən çox ucuzdur!**

Bu, düz xəttli beynimizin belə dərk edə bilmədiyi bir rəqəmdir. Eksponent artım imkanlarından istifadə etməməyimizin və ya baş verəcək pozulmanı görə bilməməyimizin səbəblərindən biri məhz budur.

**Bu eksponent dəyişiklik bir sıra sənaye və şaquli sahələrdə baş verməkdədir. Səlim İsmayılın dediklərindən dünyanı dəyişmiş ən azı 25 Qutenberq anının olduğunu öyrənmiş oluruq.**
**Bir təşkilat olaraq bundan istifadə edə bilməyiniz və bunun üçün atributlara sahib olmanız vacibdir.**

# Hal-hazırda biz 25+ Qutenberq anını yaşamaqdayıq

**Cəmiyyət texnologiyanı kifayət qədər sürətlə mənimsəmir.**

1. Geyinilə bilən texnologiya
2. Qarışıq reallıq
3. Rəqəmsal əkizləşmə
4. Bionika
5. Nanotexnologiya
6. Mədəni proteyin
7. Günəş enerjisi
8. Yaşlanma əleyhinə texnologiya
9. Sosial mediya
10. Sensorlar
11. Kosmik özəlləşdirmə
12. Rəqəmsal hökümət
13. Bulud hesablama
14. CRISPR (Gen dəyişikliyi)
15. Genetik sıralama
16. AI/ML/DL (Süni zəka/maşın öyrənmə/dərin öyrənmə)
17. Enerji saxlama
18. Neyro görüntüləmə
19. Avtonom nəqliyyat vasitələri
20. Blokçeyn
21. Robot texnologiyaları
22. Dronlar
23. 3D çap
24. Mikrobiom
25. Bitkoyn
26. Kvantum hesablama

**Decade of the ExO**
2020 - 2030

Biz bunu EkT (Eksponent Təşkilatlar) dekadası adlandırdıq, çünki EkT-dən istifadə edən təşkilatların innovativ və dayanıqlı təşkilatlar qura bildiyini görürük. Bizim Fortuna 100 şirkətlərinin Eksponent Kəmiyyət (EkK) araşdırmamıza nəzər yetirdikdə, yüksək EkK balları olan təşkilatların (yəni daha çox Eksponent atributlardan istifadə edənlərin) aşağı balları olan təşkilatlardan necə üstün olduğunu görmək mümkündür.

## Top 10-da yer alan EkT-ların sıralamanın aşağı 10-dakı EkT-lərdən fərqi belədir:

**3X** Dəfə çox gəlirlilik

**10.9X** Dəfə çox aktivlərdən istifadə

**6.4X** Dəfə çox mənfəət

**40X** Dəfə çox səhmdar gəlir norması

# Rəqəmsal transformasiya dünyada yayımlanan xəbərlərdə, şirkətlərin idarəheyəti üzvlərinin və korporativ əməkdaşlarının ağızlarında və ekranlarındadır.

Hökumətlər bu barədə danışır və hər yerdə 4-cü sənaye inqilabı termini istifadə olunur. Rəqəmsal transformasiyaların 70%-dən çoxunun uğursuzluğu ilə bağlı bir sıra nəşrlər də dərc edilmişdir. Bu səbəbdən, bir təşkilatda lider olaraq hansı yolun ən yaxşı olduğunu tapmaq çətin ola bilər.

Əgər təşkilatınız texnologiyanı mənimsəmək istəyirsə, bunu etmək üçün təşkilatınızın bizim yaşadığımız eksponent dövrdən ən yaxşı istifadə edə biləcək düşüncə tərzinə malik olduğunu təmin etməlisiniz. Bir çox təşkilatlar xətti proseslərini rəqəmsallaşdırır, lakin ümid etdikləri nəticələrə nail olmurlar. Rəqəmsallaşdırma ilə başlamaq heç də çıxış yolu deyildir.



# Sadə bir nümunə

Təşkilat gündəlik tükənən vəsaitləri almaq üçün sifariş kitabçasından istifadə edir. Bu, vaxt aparan proses olmaqla yanaşı kitabçaların alınması üçün əlavə xərclər yaradır. Bu səbəbdən, təşkilat sifariş kitabçalarını dövriyyədən çıxarmaq istəyir.

Rəqəmsal transformasiya yanaşması kitabçanın rəqəmsallaşdırılmasından ibarətdir ki, bu zaman mütəxəssislərdən ibarət qrup əl ilə icra edilən prosesin rəqəmsal versiyasını yaradır. Nəticədə elə bir sistem alınır ki, insanların bu yeni sistemi mənimsəmək üçün uzun zaman tələb olunur və ola bilsin 10% səmərəli nəticə əldə olunur, lakin qrup artıq systemdən heç də istifadə etmək istəmir. 10% yox, 10x dəfə çox səmərəli olmaq lazımdır.

## Bəzi təşkilatlar bu yanaşmadan istifadə edirlər

accenture | ACCIÓ | ALEC Building Excellence | TD Ameritrade | Ananda Development

BHP | Bitdefender | Boston Scientific | COTEMINAS | Dubai Electricity & Water Authority

Dusit Thani Hotels & Resorts | Fraport Bulgaria | Generalitat de Catalunya | hp | iKé Asistencia

INTER Protección | Miami-Dade County | MOBLY | Omnivida | P&G

Rassini | RioTinto | Santos | Sareb | Sasin

Siemens Energy | Stanley Black & Decker | Trident Group | Velocia | VISA

## Niyə xətti rəqəmsal transformasiyadan daha çox eksponent transformasiyaya ehtiyacımız var?

Eksponent transformasiya üçün siz keçmişdə sifariş edilmiş bütün tükənən vəsaitlər barədə məlumatlardan istifadə edərək alqoritmlər vasitəsilə məlumat tarixçəsi əsasında tükənən vəsaitləri öz-özünə sifariş edən sistem qurmalı, daha sonra zamanla alqoritmlərdə təkmilləşdirmələr aparmalısınız. Sistem öz-özünə sifarişləri davam etdirərkən, sizin komandanız daha çox dəyər qatan fəaliyyətlərə fokuslana biləcək və inkişaf 10x dəfə artıq olacaqdır.

# Eksponent transformasiya




## Eksponent düşüncə tərzinə keçid təbii olaraq baş vermir.

**Eksponent xüsusiyyətlərdən istifadə edə bilmək üçün təşkilatınız düşüncə tərzini dəyişməlidir.**

Biz bu məqsədə nail olmaq üçün təşkilatınıza kömək edə biləcək bir neçə proqram hazırlamışıq. Proqramların ən böyüyü 10 həftəlik Eksponent Transformasiya üzrə sprintdir. Bu proses təşkilata 10 həftə ərzində 3 il irəliyə getməyə imkan verir. Sprint prosesi barədə daha dərin bilgi almaq üçün aşağıdakı linkə keçid edin.




**Təşkilatınız daxilində EkT atributlarından necə istifadə edəcəyinizi başa düşmək, bu onillikdə aktual qalmaq üçün vacibdir.**

openexo

# Sifarişçilərdən daxil olan rəylər

"EkT-nin son dərəcə dəyərli olduğunu gördüm. Mən kitabın yüksək rəhbər heyəti tərəfindən oxunmasını tələb etdim və biz onun bir çox prinsiplərini həyata keçiririk."

Unilever

Paul Polman
Keçmiş Baş direktor, Unilever

"Bu təşəbbüs dövlət/özəl tərəfdaşlıqların cəmiyyət üçün necə faydalı olduğunun bariz nümunəsidir."

MIAMI-DADE COUNTY

Carlos A. Gimenez
Miame-Dade Əyalətinin Meri

"Biznesdə ən yaxşı təcrübələri yenidən kəşf etmə yolunda ekponent texnologiyalar ilə maraqlanan hər kəs üçün eksponent təşkilatlar mütləq tələb olmalıdır."

Google

Ray Kurzweil
Mühəndislik bölməsinin direktoru, Google

"Transformasiya probleminin 90%-i şirkəti özünə cəlb etməkdir. Təşkilatın yuxarı eşelonunu həyəcanlandırmaq asandır. Problem donmuş ortadır. EkT sprint prosesi bu donu əritmək üçün həll yoludur."

P&G

Tony Saldanha
VP Global Business Services, P&G

"Mən Guccini eksponent təşkilata çevirəcəyəm."

GUCCI

Marco Bizzarri
Baş direktor, Gucci

"Biz Taylandı eksponent Taylanda çevirəcəyik."

Prayut Chan-o-cha,
Tayland hökümətinin Baş naziri

## Bir neçə il ərzində yüzlərlə təşkilatda aparılmış araşdırmalardan sonra Eksponent Təşkilatlar (EkT) Modeli yaradılmışdır.

Bu modeli aşağıdakı sadə tənlikdən istifadə etməklə yadda saxlamaq olar: EkT = BTM + TİAAC + İDSAS. Bu formulun tərkibi üç komponentdən, Böyük Transformasiya Məqsədi və təşkilatdan kənarda ehtiyat bolluğundan istifadəyə imkan verən 5 atribut və bu bolluğu təşkilat daxildə idarə etməyə yönəlmiş 5 atributdan ibarətdir.

# MTP

### Böyük Transformasiya Məqsədi (BTM)




Eksponent təşkilatın şərtsiz amili BTM-dir (Böyük Transformasiya Məqsədi). Təşkilatın məqsədi böyük və transformasiya xarakterli olmalı və onun bütün dəyər, eləcədə hədəfləri bu məqsədə xidmət etməlidir. Bu məqsəd sadəcə şüar olaraq divarda olmamalıdır.

**Təşkilat bu məqsədlə yaşamalıdır.**

## BTM-ə dair bəzi nümunələr bunlardır

SpaceX şirkəti: “İnsanlar çox planetar canlılar olmalı”
TED şirkəti: “Yayılmağa dəyər fikirlər.”
X Prize fondu: “İnsanlıq naminə radikal dəyişikliklər gətirmək.”
Google şirkəti: “Dünya məlumatını təşkil etmək.”

**BTM-i təyin etdikdən sonra təşkilatı eksponent inkişafa aparan növbəti addım daxili və xarici xüsusiyyətləri anlamaqdan ibarətdir. Daxili xüsussiyyətlər bunlardır: interfeyslər, daşbordlar, sınaq, avtonomya və sosial texnologiyalar. Bu xüsusiyyətləri qısaca İDSAS kimi adlandırmaq olar. Xarici atributlara isə bunları aid etmək olar: tələb üzrə işçilər, icma və kütlə, alqoritmlər, aktivlərdən istifadə və cəlb etmə. Bu atributları qısa olaraq TİAAC adlandırmaq olar.**

# İDSAS; EkT-lərın daxili xüsusiyyətləri

| Xüsusiyyət | Bu nədir? | Üstünlüklər | Tələblər |
|---|---|---|---|
| İnterfeyslər | İnterfeys təşkilatın xaricindəki fəaliyyətləri ilə daxili nəzarət çərçivəsi arasında əlaqəni təmin edir. Bunlara platformaları, istifadəçi interfeyslərini, APİ-lər misal göstərmək olar | • Kənardakı bolluğu daxili dəyərə çevirməklə filtr rolunu oynayır<br>• Təşkilatdan kənardakı inkişaf amillərini daxili stabilləşdirici faktorlara çevirməyə vasitə olur<br>• Avtomatlaşdırma miqyaslanmanı artırmağa imkan verir | • Standart proseslər<br>• Miqyaslana bilən kənar amillər<br>• Alqoritmlər |
| Dəşbordlar | Dəşbordlar real vaxt rejimində və mənalı şəkildə göstəricilər üzərində ölçmə imkanlarını təmin edən vasitədir | • Real vaxt rejimində mühüm inkişaf göstəricilərini izləməyə imkan verir<br>• Məqsədli Əsas Nəticələri (MƏN) idarəetmə çərçivəsi olaraq təmin edir<br>• Qısa əks cavab vasitəsilə səhvləri minimuma endirir | • Real vaxt rejimində ölçülər<br>• Analitik imkanlar<br>• MƏN-lər<br>• İşçilər tərəfindən mədəni qəbul |
| Sınaq | Mülahizələri test etmək və idarəoluna bilən risklərlə daima sınaqlar aparmaq kimi xüsusiyyətlərə malik qənaətcil startap metodudur | • Proseslərin daima dəyişən kənar mühitə uyğunluğunu təmin edir<br>• Maksimal dəyər əldə etməyə imkan verir<br>• Daha sürətli bazara çıxma vaxtı (Minimal sərfəli məhsul)<br>• Risk götürməklə üstünlük və daha tez öyrənmə imkanlarını təmin edir | • Sınaqların idarəedilməsi və izlənməsi<br>• Mədəniyyətin qəbulu |
| Avtonomya | Yeni "səlahiyyətli" və ya komanda əsasında təşkilati formalardır | • Çevikliyin artması<br>• Müştəri qarşısında daha çox məsuliyyət<br>• Daha sürətli reaksiyalar və öyrənmə müddətləri<br>• Daha yaxşı əhval-ruhiyyə | • BTM<br>• Özləri başlayan işçilər<br>• Dəşbordlar |

# TİAAC; EkT-ların xarici xüsusiyyətləri

| Xüsusiyyət | Bu nədir? | Üstünlüklər | Tələblər |
|---|---|---|---|
| Tələbat üzrə işçilər | Daha yarım ştat, ixtisaslı və missiya əsaslı heyət | • İş üzrə ən yaxşı bacarıqlar<br>• Çeviklik<br>• Əsas heyətin öyrənməsi<br>• Əsas heyət arasında daha güclü bağlar | • Xidmətlərə tələb yarandıqda cəlb etmə imkanları<br>• Vəzifə və öhdəliklərin aydın təsviri |
| İcma və kütlə | İcma və kütləni hər nə yolu ilə olsun cəlb etməklə potensialdan istifadəni təmin edir | • Sadiqliyi artırır<br>• Eksponent artıma imkan yaradır<br>• Yeni ideayaları təsdiq edir və öyrənməni təmin edir<br>• Çeviklik və sürətli icranı təmin edir<br>• Yeni ideyalar yaradır | • BTM<br>• Cəlb etmə<br>• Həqiqi liderlik<br>• Kənar şəxslərin iştirakı asanlaşır<br>• Təmərküzləşmiş qabiliyyətlər |
| Alqoritmlər | Məlumatlardan istifadə edərək qərarların avtomatlaşdırılması və ya qərar qəbul edərkən insanların qərəz və səhvlərinin azaldılması; | • Məhsul və xidmətlərin miqyaslana bilməsi<br>• Qoşulmuş cihaz/sensorlardan istifadə<br>• Aşağı xəta dərəcəsi və stabilləşmə<br>• Asan yenilənmə | • Maşın və dərin öyrənmə<br>• Mədəniyyətin qəbulu |
| Aktivlərdən istifadə | Aktivlərdən istifadə edilir, onlar qıt olmadıqca onlara sahiblənilmir | • Məhsul və xidmətlərin miqyaslana bilməsi<br>• Təchizat üzrə aşağı marjinallıq<br>• Aktivlərin idarəedilməsi yükünün azalması<br>• Çeviklik | • Aktvlər üzərində asan əlçatanlıq<br>• İnterfeyslər |
| Cəlb etmə | İcma və kütlənin cəlb edilməsi | • Sadiqliyi artırır<br>• İdeya qazandırır<br>• Kütləni icmaya çevirir<br>• Marketinq imkanlarından istifadəyə imkan verir<br>• Oyna və örgən imkanlarını təmin edir<br>• Müştərilərlə rəqəmsal əks əlaqəni təmin edir | • MTP<br>• Şəffaflıq və ədalətlilik |

Siz təşkilatınızın atributlardan necə istifadə etdiyini EkT lövhəsindən görə bilərsiniz.

# Siz EkT-dan necə istifadə edə bilərsiniz?

Başlamaq üçün ən yaxşı yerlərdən biri təşkilatınızın hazırda nə qədər eksponent olduğunu anlamaqdır. Bu, Eksponent Kəmiyyət Sorğusunu doldurmaqla edilə bilər. Sorğuda ən azı 65-dən yuxarı bal toplanılmalıdır. Növbəti mərhələ EkT atributların daha yaxşı başa düşülməsidir ki, bunun üçün EkT Əsaslarına aid Təlimə baxa və ya Eksponent Təşkilatlar Kitabını oxuya bilərsiniz.




Mövzunu yaxşı anladıqdan sonra, siz EkT lövhəsinə əsasən təşkilatınızın atributlardan necə istifadə etdiyini görə bilərsiniz. Eksponent transformasiyanı həyata keçirmək məqsədilə siz EkT spirinti icra edə bilərsiniz. Bu təşəbbüsün icrasında OpenExO icmasından istifadə məqsədilə aşağıdakı “Sizə necə kömək edə bilərik” bölməsinə daxil ola və ya Eksponent Transformasiya üzrə İş Kitabını almaqla bunu təşkilatınızda həyata keçirə bilərsiniz.

# Sizə necə kömək edə bilərik

**Başlamaq üçün bu QR kodu skan edin və ya bu linkə keçid edin.**

Biz Eksponent Transformasiyadan istifadədə dünyanın hər yerindən olan təşkilatlara kömək edən EkT müəllimləri və məsləhətçiləri, texnoloji düşüncə liderləri, novatorlar və pozuculuq üzrə icraçılardan ibarət qlobal icma qurmuşuq. Bizdə müxtəlif ölçüdə təşkilatlar üçün çox sayda proqramlar və imkanlar vardır. Bizimlə buradan əlaqə saxlayın və biz Eksponent Transformasiyanızın inkişafını təmin etmək üçün sizə geri dönəcəyik.